**UOT 82**

# SOMERSET MOEMİN "TEATR" ƏSƏRİ VƏ CƏFƏR CABBARLININ "OQTAY ELOĞLU" PYESİ: BƏDİİ MƏZİYYƏTLƏR

**İlahə İSMAYILOVA***

Məqalə redaksiyaya daxil olmuşdur: 30 mart 2023; çapa qəbul edilmişdir: 28 aprel 2023; online-da çap edilmişdir: 30 iyun 2023.

Received: 30th of March, 2023; accepted: 28th of Aprel, 2023; published online: 30th of June, 2023.

**Açar sözlər:** *teatr sənəti, aktrisa, istedad, müqayisəli təhlil, fəlsəfi düşüncə*

## Giriş

XX əsr dünya ədəbiyyatı nümayəndələrindən olan Somerset Moem və Cəfər Cabbarlının əsərinin müqayisə olunması təsadüfi olaraq seçilməmişdir. Hər iki müəllifin yaradıcılığında teatr və aktrisa məsələləri yer almışdır. Məhz bu prizmadan da nəzərdən keçirilmiş və sözükeçən problemlər məqalədə öz əksini tapmışdır.

Məqalədə Somerset Moem və Cəfər Cabbarlı yaradıcılığında teatr sənəti məsələləri, aktrisalıq məharəti və problemi, eləcə də bu problemin əsərin xarakterlər vasitəsi ilə açılması məsələsi qoyulmuşdur. Moemin "Teatr" əsərində Edvard dövrünün sənətə və qadına bəxş etdiyi azadlıq bu roman vasitəsilə gözlərimiz önündə canlanır. Əsərdə aktrisalıq bacarığı, azadlıq ideyaları bir vəhdət halında özünü göstərir. Burada sənətkarın düşüncələri, əsasən, Culiyanın aktrisalığı ilə yanaşı onun daxili dünyası və həyat tərzinin sərgilənməsi ilə ifadə olunur. Buradan yola çıxaraq, Cəfər Cabbarlı yaradıcılığında öz əksini tapmış Oqtay Eloğlu obrazı da bu mənada əsərlərin ideya estetik yönlərinin ümumiliyini ortaya qoyur. Azadlıq və aktrisa məsələsi cari əsərdə fərqli yöndə müşahidə olunur. Bu səbəbdən də məqalə hər iki müəllifin sözügedən əsərlərinin qarşılaşdırlıması yolu ilə araşdırmaya cəlb edilmişdir.

## 1. İncəsənət müxtəlif baxışlar sistemində

Bəşəriyyətin mövcud olduğu ilk dönəmlərdən çağdaş dövrümüzə qədər hər zaman sənət insan cəmiyyətinin özünü ifadə formalarından biri olmuşdur. Mifoloji dünyagörüşünün ifadə forması kimi meydana gələn, ritual xarakterli ayin və mərasimlərdən başlayaraq, zaman-zaman estetik xarakter qazanan teatr sənəti klassik dövrdə daha çox ictimai-siyasi, tarixi-mədəni mühitin obrazlar vasitəsi ilə açılmasına xidmət etməyə başlamışdır. İncəsənət eyni zamanda bir dəyərdir. O dəyəri anlamaq həm də bir fərdin öz mənini kəşf etməsi ilə də bağlıdır. Yunan filosofu Aristotel hələ e.ə. incəsənət barədə öz görüşlərini təqdim etmişdir. Xüsusilə də onu qeyd edək ki, filosofun bu barədə fikirlərini əks etdirdiyi əsəri "Poetika" adlanır.

"İncəsənət insan fəaliyyətinin xüsusi, spesifik bir formasıdır.O, insanların estetik tələblərini ödəyir,bununla da bir sıra vəzifələri yerinə yetirir. Öz mahiyyəti etibarilə incəsənət gerçəkliyi əks etdirir və ictimai şüurun formalarından biri sayılır. Təsadüfi deyil ki, L.Tolstoy insan qəlbindəki həqiqətləri açmağı, əks etdirməyi incəsənətin başlıca məqsədi

* *magistrant, Bakı Avrasiya Universiteti*
*e-mail:* ilahe.ismayilova.96@list.ru

saymış, M.Qorki incəsənəti "insanşünaslıq" adlandırmağı lazım bilmiş, Ü.Hacıbəyov onu "ictimai həyatın güzgüsü, sənətlər məbədi" adlandırmışdır". (4, s. 110)

Bildiyimiz kimi, incəsənət mədəniyyətin tərkib hissəsi olaraq nəzərdən keçirilir. Estetik mahiyyət daşıyan incəsənət həm də tərbiyələndirir. Burada sözsüz ki, estetikadan da bəhs etməyə lüzum yaranır. Estetika isə hisslər haqqında elm olaraq anlaşılır. Bu elm sahələri qarşılıqlı şəkildə bir-biri ilə əlaqədədirlər.

İncəsənətin xüsusiyyətlərini anlamaq isə onla maraqlanan şəxsin yaradıcı düşüncə və dərki ilə bağlıdır. Məlum olduğu kimi, incəsənət reallığın təkrar şəkildə izahı deyil. O dünyanın obrazlı şəkildə dərki olaraq qavranılır. Xüsusən də onu qeyd edək ki , incəsənət sərhəd tanımayan sənətlərin vəhdətindən ibarətdir.

"Sənətin qayəsi özünü tanıtmaq və sənətkarı gizləməkdir." fikri isə, demək olar ki, bütünlüklə sənəti və onun məramını ifadə edir. (2, s. 5)

Bilirik ki, Azərbaycanda incəsənətin müxtəlif növləri, eləcə də ədəbiyyat məhz Axundov ənənələrindən, xüsusilə də onun realizm məktəbindən qidalanaraq inkişaf etmişdir. "Azərbaycan ədəbiyyatı tarixində ilk dəfə olaraq ədəbiyyat ve incəsənətin ictimai mənasını,onların məqsəd ve vəzifəsini elmi dərinliklə realistcəsinə düşünən ve qiymətləndirən M.F.Axundov olmuşdur. Onun fikrincə incəsənət və ədəbiyyat xalqa xidmət etməli, azadlıq ve istiqlaliyyet, xoşbəxt heyat uğrunda mübarizədə bir vasitəyə çevrilməlidir". (4, s. 26)

Mədəniyyət, incəsənət, ədəbiyyat, musiqi, elm və s. deyəndə ağıla ilk gələn ölkələrdən biri sözsüz ki, İngiltərədir. Burada incəsənətin,musiqinin,ədəbiyyatın tarixi də qədim zamanlara gedib çıxır. Elə bu nöqteyi nəzərdən məsələyə yanaşdıqda və ingilis ədibi U.S.Moemin yaradıcılığına diqqət etdikdə sənət və ona verilən xüsusi diqqəti anlamaq mümkündür.

XX əsr ingilis ədəbiyyatının klassiklərindən olan Somerset Moemin yaradıcılığını nəzərdən keçirərkən görürük ki, bir çox əsərləri məhz sənətkar həyatına həsr olunmuşdur. S.Moem sənət daxilində sənəti və onun dəyərini əks etdirmişdir. Belə ki, o bir ədəbiyyatçı olaraq əsərlərində rəssam, yazıçı, aktrisa kimi yaradıcı insanları təsvir etmişdir. Bu əsərlərin hər birində sənətkar bütün xüsusiyyətləri ilə öz sənətinə xidmət edir. Moemin bu sənətkarları fövqəl dəyərə sahib insanlar olaraq yaradılmışdır. Bu əsərlərdə baş qəhrəmanların həyatlarının mərkəzində sənət və bunun uğrunda mübarizə dayanır. Sözügedən əsərlərdən biri də “Teatr”dır. 1933-cü ildə qələmə alınmış “Teatr” əsərinə nəzər yetirsək, müşahidə edəcəyik ki, ədibin yazı maneraı, aydın, anlaşıqlı dili bizi hadisələrlə birgə addımlamağa sövq edir.

### 2. "Teatr" əsərinin xarakteristikası

Əvvəlcə onu qeyd edək ki, bu əsər Edvard dövründəki ingilis teatrının və Böyük Müharibədən sonrakı dövrlərin təsviridir.

“Edvard dövrü Britaniyası hansı formada özünü göstərir və necə təzahür edirdi? Onu qeyd etmək lazımdır ki, Britaniya tarixinin Edvard dövrü Kral VII Edvardın 1901-1910-cu illəri əhatə edən qısa bir zaman kəsiyində mövcud olmuş dövrdür.1901-ci ilin yanvarında Kraliça Viktoriyanın ölümü ilə Viktoriya dövrü sona çatır. Kraliçanın oğlu Edvard taxta çıxır. Kraliçanın oğlu və varisi olan Edvard Avropanın incəsənəti və dəbindən təsirlənən bir üslub quran dəbli elitanın lideri idi. Bu dövr çox mühafizəkar olan Viktoriya cəmiyyəti ilə müqayisədə əxlaq baxımından fərqli, davranış cəhətdən daha rahat bir standarta sahib idi”. (5, s. 3)

Hissələrində kifayət qədər dönmələrə baxmayaraq, əsər 4 əsas personajla xarakterizə olunur: orta yaşlı aktrisa Culiya Lembert, onun cazibədar, yaraşıqlı və sadiq əri Maykl, onun diqqətsiz və vecsiz gənc sevgilisi Tom və aktrisanın oğlu Rocer.

İstedadı ilə könülləri fəth edən əsərin baş qəhrəmanı Culiya Lembert öz dövründə

sənətinin zirvəsini yaşayırdı. O, 47 yaşlı gözəl və çox sevilən aktrisadır. Sənətinə vurğundur. O qədər vurğun ki, oynadığı hər rolun sözlərini, obrazların fikirlərini real həyatında da tətbiq edir. Culiya Lembert sənət üçün yaradılmışlardan idi. İstənilən rolun öhdəsindən peşəkarlıqla gələn C.L. bunun üçün ağır zəhmətlərə qatlaşmalı olmurdu. Axı, onun istedadı özü ilə birlikdə doğulmuşdu. Belə ki, Culiya öz gerçək həyatında da oynayırdı.

Səhnədəki C.L. ilə real həyatdakı C.L. tərəzinin eyni gözünə qoyula bilərdimi? Əgər qoyulardısa, o zaman hansı daha ağır gələcəkdi?!

Culiya səhnəyə çağırılanda hər dəfə eyni həyəcanı keçirirdi. Həyat onun üçün bununla məna alırdı. Sanki o, qurama aləmdən həqiqi, gerçək bir aləmə keçid edirdi. Teatr onun üçün reallığın özü idi. C.Lembertin aktrisalıq istedadı bütün baryerləri aşmışdı. O, ürəyi istəyəndə hətta gözündən yaş da axıda bilirdi. Aktrisa hətta aktyor istedadı deyilərkən nəyin nəzərdə tutulduğunu belə bilmirdi. Çünki o, aktrisalığı kimdənsə öyrənməmişdi, kimi isə yamsılamırdı. O elə bu cür doğulmuşdu. Aktrisanın xarakteri həm öz davranış və düşüncələri, həm də oğlu Rocerin nitqi vasitəsilə güzgü kimi əks olunur. Belə ki, onu vurğulamaq gərəkdir ki, Culiyanı əks etdirən iki əsas güzgü var. Birincisi onu xarici görünüşündən agah edən otağındakı əşya, digəri isə daxili aləmini aşkar şəkildə göstərən oğlu Rocer.

Ana və oğulun dialoqu bədii nümunənin ən maraqlı və təsirli hissələrindəndir. Belə ki, Culiya az qala hissiz, düşüncəsiz hesab etdiyi oğlundan ağır bir dərs almış olur. Aktrisanın kimliyini, əsl xarakterini məhz oğlu ona ittihamlı şəkildə bildirir. Rocer ata və anasının qurama dünyasını zəhərli adlandırıb gerçək aləmə çatmaq istədiyini aşkar şəkildə bildirmiş olur. Bəs, Culiya Lembert bütün bu haqlı ittihamlara həqiqətin gözü ilə baxa bilirmi?! Baxır, əlbəttə. Amma öz həqiqətinin gözü ilə baxa bilir. Hesab edir ki, teatr, səhnə, tamaşalar, aktyorlar elə əsl gerçəklik bunlardır. Culiya özünə haqq qazandıraraq belə düşünür:

“Rocer təkid edir ki, biz aktyorlar həyatda mövcud deyilik. Amma tam əksinə, mövcud olan elə bizik. Onlar sadəcə kölgədirlər və biz o heçliyə bədən geyindiririk. Deyirlər, oyun bir yalandı. Amma gerçək olan təkcə elə bu yalandı”. (1, s. 248)

Culiyanı dörd prizmadan təhlilə cəlb etsək, təzadlı vəziyyətlərlə qarşılaşacağıq. C.L. bir aktrisa olaraq, sənətinin zirvəsində özünə taxt-tac qurmuşdu. C.L. bir qadın olaraq da gözəl və sevimli, eyni zamanda tədbirli idi. Ərinə qarşı sədaqətlimi idi? Hərəkətlərinin düşüncələri ilə təzadlı olduğunu dərk edirdimi? Məqalədə bu suallara cavab axtarılmışdır. Düşdüyü vəziyyətlərdə xəyanətə şərait vardısa, tərəddüd etmədən o, xəyanət ortağı olmağı qəbul edirdi. Gənc sevgilisi Tom ilə münasibətindən tutmuş təsadüfi qatar tanışlığındakı qeyri-ciddi hərəkətlərinədək Culiyanın xəyanətkar qadın obrazını müşahidə edirik. Qatardakı ispan “tanışı” haqqında sonradan belə fikirləşirdi: “Bu kişilər, doğrudan da, heyvan xislətlidirlər. Onları boş buraxmaq olmaz. Ayıb olsun! Belə gözəl arvadı və göyçək qızın ola-ola qatarda təsadüfi tanışlıq sevdasına düşəsən! Kişilərdə, görəsən, azca da olsa, ləyaqət hissi varmı?!” (1, s. 99)

Ləyaqət və əxlaq barəsindəki bu düşüncələri özünə yaxın belə bilmirdi. Eyni səhvin iştirakçısı olub özünü deyil, tərəfdaşını ittiham etmək ədalət, əxlaq, ləyaqət anlayışlarını darmadağın etmək demək idi.

Çarlz haqqında son qənaətləri də hisslərinin cavabsız qalmasından doğan fikirləri idi. Culiyanın bir insan olaraq xarakterinə nəzər salsaq, tərəddüd doğuran nüanslarla qarşılaşacağıq. Aktrisanın əməlləri ilə sözləri arasında dərin bir təzad özünü göstərirdi. Culiya ittihamlarını, tənqidlərini çox ustalıqla ətrafdakılardan gizlədib tamamilə başqa bir obrazda mövcud olurdu. Tom ilə münasibətlərinin kəskinləşdiyini sezən aktrisa onu mənən alçaltmağı məqbul sayır. Lakin o, gənc sevgilisinə vəziyyəti olduğundan tamamilə fərqli şəkildə “izah edir”. Tomun tanışı gənc aktrisa Evis Kraytona səhnədə etdiyi bada-

lağı da C.Lembertin insani dəyərlərdən uzaq olduğunu göstərir. Culiyanın bir ana olaraq hissləri, davranışları onun həm Rocer haqqında düşüncələrində, həm də Rocerin nitqində aşkar olunur. Rocer deyir: "Sən yeganə oğlunun tabutunun yanında dayanmış yetim ana rolunu çox məharətlə oynayardın". (1, s. 224) Daha sonra o belə əlavə edir: "Mənə körpə olanda bağlıydın, amma o vaxtdan sən mənim üçün çox da narahat olmamısan. Əksinə, mən sənin üçün əlavə yük olmuşam. Sən məni görməyə həmişə şad idin, amma özümün öz başımı qatmağım, mənə vaxt ayırmağın səni tamamilə qane edirdi. Mən səni günahlandırmıram. Sən vaxtını ancaq özünə ayırırdın, başqa heç kimə." (1, s.224) Amma bütün bu kimi danışıqlarına baxmayaraq, anasına minnətdarlıq hissi də var idi: Sən çox yaxşı ana olmusan. Mənə elə böyük bir yaxşılıq etmisən ki, tək buna görə sənə ömrüm boyu minnətdar olacağam. Sən məni rahat buraxmısan. (1, s. 224)

Culiya xarakteristikasının spesifikliyi dünya ədəbiyyatının aktrisa obrazını tamamlamış sayılır. Onun cəmiyyətə, ətrafına, yaxınlarına olan görüşlərində sezilən bayağı fikirlər onun şəxsi mənini ortaya çıxarırdı. Lakin bizə aydındır ki, Somerset Moem sənətkar yaradarkən onu məhz bu çərçivədə ərsəyə gətirmişdir. İstedadlı olduğu qədər, insani keyfiyyətlərə yad.

Moemin sənətkarı təhlil olunarkən, bu yöndə yüksək mövqedə qərarlaşırsa, insani dəyərlər baxımından isə uzaqda qalır. Buradan da aydın olur ki, insani keyfiyyətlərə yad obraz olan Culiya bir insan olaraq deyil, məhz aktrisa olaraq dəyərləndirilməlidir.İfa etdiyi rolun öhdəsindən məharətlə gələn Culiya personajı şəxsi düşüncə və hissiyyatı ilə çulğalaşdıraraq öz məninə uyğunlaşdırırdı. O yaradıcı şəxsiyyət olaraq o qədər güclü idi ki, ixtiyarında olmadıqlarını da bunun vasitəsilə əldə edə bilirdi.

Tematik baxımdan çox uğurlu alınan bədii nümunə teatr aləminin dəqiqliklə təsvirini vermişdir. Ədib Culiya obrazı ilə sənət adamlarının daxilini bürüyən azadlıq hiss və düşüncəsini, öz mənlərini axtarmalarını, hansı yerdə və mövqedə qərar tapmalarını qələmi vasitəsilə oxuculara çatdırmışdır.

### 3. "Teatr" və "Oqtay Eloğlu" əsərlərində fəlsəfi görüşlər

"Teatr" əsərini Azərbaycan ədəbiyyatında xüsusi rolu olan "Oqtay Eloğlu" əsəri ilə müqayisə etsək, bir sıra fərqli və oxşar nüanslarla qarşılaşacağıq. "Oqtay Eloğlu" əsəri XX əsrdə mədəni mühit, xüsusilə də Azərbaycan teatrının taleyini düzgün formada təsəvvür etmək baxımından dəyərli bədii nümunədir. Azərbaycan teatrının yeni istiqamət almasında, müasir ədəbi dilimizin formalaşmasında mühüm rol oynayan ədibimiz C.Cabbarlı "Oqtay Eloğlu" əsərini yazmaqda məqsədi Azərbaycan Milli Teatrını yaratmaq ideyası idi.

XX əsrdə yazılmış bu əsərləri Şərq və Qərb müstəvisində təhlil etməyə çalışsaq, bir çox faktları aydınlaşdırmış olacağıq. Belə ki, hər iki əsər öz ölkəsində dövrünün teatr mühitini əks etdirməsi baxımından çox əhəmiyyətlidir. Digər əsas problemlərdən biri isə aktrisadır. Culiya Lembert sənətinin zirvəsini yaşadığı halda, Oqtay üzünü teatra tutaraq "Səfil xalq, nə bağırırsan, səndə sənətkar bir qadın yox, varsansa, yarat, yaratmırsansa, sus, uzan öl" – deyə ittihamlar səsləndirir". (3, s. 283)

Əsərin sonlarına yaxın biz Azərbaycan qadınının səhnəyə doğru ilk addımlarını görürük. Pyesin sonunda eyni səhnəni bölüşən Oqtay hislərinə qapanaraq səhnədə Firəngizi öldürür.

Diqqət çəkən məqamlardan biri isə budur ki, S.Moemin "Teatr" əsəri boyunca biz baş qəhrəmanın bütün istedadlarına baxmayaraq, eyni zamanda real həyatda əsl bir peşəkar oyunçu olduğunu görürük. Culiya üçün reallığın özü məhz elə oynamaqdan ibarətdir. C.Cabbarlının "Oqtay Eloğlu" əsərinə diqqət etsək, orada baş qəhrəmanın süniliyə barışmaz mövqeyinin şahidi olacağıq. Baxmayaraq ki, o, aktyor idi, səhnə üçün, teatr üçün mübarizə aparırdı, lakin onun dilindən səslənən bu ifadələr Oqtayın əsl xa-

rakterini üzə çıxarır. O deyir: "Zavallı bəşəriyyət neçin həqiqəti gizlədirsiniz? Qoyun, bu qara çirkin daşlar olduğu kimi görünsünlər. O çirkin də olsa, həqiqət olduğu üçün gözəldir! Hər şey göründüyü kimi yox, olduğu kimi görünsün". (3, s. 270)

**Nəticə**

Eyni əsrdə fərqli mühitlərdə yaşayıb yaradan hər iki ədibin, sözsüz ki, sənətə, teatra çox dəyər verdiyini görmüş oluruq. Lakin Oqtayın süniliyə qarşı barışmaz mövqeyi əsərin sənətə dair qiymətini azaltdığını düşünmək tamamilə yanlış yanaşma olardı. Bu ədibin fəlsəfi düşüncələrinin əks olunması idi. Bu, "Teatr" əsərində də təsvir olunmuşdur. Lakin burada fəlsəfi düşüncələrin əsas daşıyıcısı Lembert yox, oğlu Rocerdir. Belə ki, sənət dünyasına verilən dəyər və fəlsəfi düşüncələri Cəfər Cabbarlı Oqtayda cəmləşdiribsə, S.Moemdə isə fərqli düşüncələrə sahib iki ayrı obrazda təsvir etmişdir. "Teatr" əsərinin bu cür adlanması təsadüfdən kənardır. Culiyanın dünyanı bir teatr, bütün kişilər və qadınların hamısını aktyor hesab etməsi bu məsələyə aydınlıq gətirir. Buradan da bəlli olur ki, əslində müəllif dünya ilə teatrı ekvivalent dəyərdə hesab etmişdir.

**ƏDƏBİYYAT**

1. Moem Uilyam Somerset. Teatr. Bakı: Qanun nəşriyyatı, 2013, 248 s.
2. Uayld Oskar. Dorian Qreyin Portreti. Bakı: Qanun nəşriyyatı, 2019, 216 s.
3. Cabbarlı Cəfər. Əsərləri. Bakı: Şərq-Qərb nəşriyyatı, 2005, 360 s.
4. Nağıyev Rəhim. Üzeyir Hacıbəyovun estetik görüşləri. Bakı: Azərnəşr nəşriyyatı, 1985, 200 s.
5. Edwardian Era-Manor House. Edwardian Life (https://www.pbs.org/manorhouse/edwardianlife/introduction.html)

***Резюме***

***Илаха Исмаилова***

***Художественные особенности «Театр»а Сомерсета Моэма и пьесы Джафара Джаббарлы «Огтай Элоглу»***

В упомянутой статье были проанализированы художественные особенности «Театра» Сомерсета Моэма, в то же время это произведение и пьеса Джафара Джаббарлы «Огтай Элоглу» были проанализированы в сравнительном ключе. Таким образом, оба произведения очень важны с точки зрения отражения театральной среды своего времени в своей стране. Еще одна важная проблема – вопрос актрисы. Итак, в творчестве Сомерсета Моэма актриса преодолела все преграды. В произведении Джафара Джаббарлы Огтай Элоглу жалуется, что на сцене нет актрисы и борется за это. Актерское мастерство Джулии Ламберт, главной героини «Театра», поразило всех. Она актриса с очень сильной игрой. Джулия Лемберт выступает не только на сцене, но и в жизни. Потому что исполнение роли для него – совершенно реальный процесс, и она не мыслит себя без нее. Джулия Ламберт одновременно и талантливая актриса, и успешная женщина. Но как человек, женщина и мать мы не можем подходить к нему с позитивными мыслями. Это отчетливо прослеживается как в его внутренних монологах, так и в речи его сына Роджер. Особо отметим, что в образе Джулии Ламберт проявляется художественный мир эдвардианского периода и вопросы женской свободы. На фоне философских раздумий перед глазами оживает образ Роджера. Название произведения «Театр» не случайно. Сравнение Джулией всего мира с театром, а всех женщин и мужчин в нем с актерами вносит ясность в темную точку. При этом философское значение произведения еще более возрастает. Итак, с этой идеей мы понимаем, что понятия мира и театра имеют здесь эквивалентное значение.

Обратим внимание на произведение Джафара Джаббарлы «Огтай Элоглу». Здесь мы наблюдаем борьбу Огтая за создание Национального театра. В то же время он сожалеет об отсутствии актрис

на сцене и высказывает свое недовольство. Его борьба на этом не заканчивается. Огтай тоже против всего искусственного.Хоть он и был актером, но боролся за сцену, за театр. Однако его идея о том, что все должно выглядеть так, как есть, показывает истинный характер Огтая. Итак, мы считаем Огтая подвижником театрального искусства. Наконец, отметим, что в каждом из этих произведений мы видим, что оба писателя, жившие и творившие в разной среде, очень высоко ценят искусство и театр.

***Ключевые слова:*** *театральное искусство, актриса, талант, сравнительный анализ, философская мысль*

***Summary***

***Ilaha Ismailova***

***Artistic Features of Somerset Maugham's "Theatre" and Jafar Jabbarli's Play "Ogtay Eloglu"***

In the mentioned article, the artistic features of Somerset Maugham's "Theater" were analyzed, at the same time, this work and Jafar Jabbarly's play "Ogtay Eloglu" were analyzed in a comparative manner. Thus, both works are very important in terms of reflecting the theatrical environment of their time in their country. Another important issue is the question of the actress. So, in the work of Somerset Maugham, the actress overcame all obstacles. In the work of Jafar Jabbarli, Ogtay Eloglu complains that there is no actress on stage and fights for it.The acting skills of Julia Lambert, the main character of the "Theater" amazed everyone. She is an actress with a very strong performance. Julia Lembert performs not only on stage, but also in life. Because the performance of the role for him is a completely real process, and she cannot imagine herself without it. Julia Lambert is both a talented actress and a successful woman. But as a human being, a woman, and a mother, we cannot approach him with positive thoughts. This is clearly seen both in his internal monologues and in the speech of his son Roger. Let us especially note that the image of Julia Lambert reveals the artistic world of the Edwardian period and issues of women's freedom. Philosophical thoughts appear in the image of Roger. The name of the work "Theater" is not accidental. Julia's comparison of the whole world with the theater, and all the women and men in it with the actors, brings clarity to a dark point. At the same time, the philosophical significance of the work increases even more. So, with this idea, we understand that the concepts of the world and the theater have an equivalent meaning here.

Let us pay attention to the work of Jafar Jabbarly "Ogtay Eloglu". Here we are witnessing the struggle of Ogtay for the creation of the National Theatre. At the same time, he regrets the absence of actresses on stage and expresses his displeasure. His fight doesn't end there. Ogtay is also against everything artificial. Although he was an actor, he fought for the stage, for the theater. However, his idea that everything should look that how they are and it is shows Ogtay's true character. So, we consider Ogtay an ascetic of theatrical art. Finally, we note that in each of these works we see that both writers, who lived and worked in different environments, value art and theater very highly.

***Key words:*** *theatrical art, actress, talent, comparative analysis, philosophical thought*

Məsul katib fil.ü.f.d.,dos. Şıxıyeva Səadət Məmməd qızının rəyi əsasında çapa məsləhət görülmüşdür.